

**MAHMUD KƏRİMOV,**
Azərbaycan Milli Elmlər
Akademiyasının Prezidenti

# AZƏRBAYCAN TARİXİNDƏ HEYDƏR ƏLİYEVİN SİYASİ FENOMENİ

Xalqımızı tarixin amansız keşməkeşlərindən uğurla keçirib yaşatmış, inkişafa istiqamətləndirmiş görkəmli dövlət xadimi, dahi siyasətçi Heydər Əliyev Azərbaycan tarixində xüsusi yer tutur. Onun siyasət sənəti və dövlətçilik məktəbi artıq müasir siyasətşünaslıqda misilsiz fenomen kimi qiymətləndirilir və öyrənilir. Heydər Əliyevi Corc Vaşinqton, general de-Qol, Adenauer kimi böyuk dövlət xadimləri ilə müqayisə edirlər.

Siyasət hakimiyyət uğrunda mübarizədir. Lakin tarix yaddaşında yalnız o siyasətçiləri saxlayır və yüksək qiymətləndirir ki, onlar öz fərdi ambisiyalarına yetmək, hakimiyyət əldə etmək uğrunda deyil, xalqın xoşbəxtliyi və tərəqqisi naminə mübarizə aparırlar. Heydər Əliyev həmişə Azərbaycan xalqının öz taleyinin hakimi olması, bunun üçün iqtisadi və mənəvi baxımdan daim kamilləşməsi uğrunda mübarizə aparmışdır. Məhz buna görə Azərbaycan tarixinin Heydər Əliyev dövrü xalqın dövlətçilik ənənələrinin bərpasına möhkəm iqtisadi və mədəni zəminin yaradıldığı, siyasi elitanın, kadr potensialının formalaşdırıldığı, yaradıcı qüvvələrin təşkil edilib istiqamətləndirildiyi, müasir dövlətçiliyin qurulub möhkəmləndirildiyi, azad, demokratik vətəndaş cəmiyyətinin, bazar iqtisadiyyatının yaradılması və inkişaf etdirilməsi sahəsində əhəmiyyətli, ardıcıl tədbirlər görüldüyü dövr - bir sözlə - xalqın çoxminillik tarixində, sözün əsl mənasında, **qızıl dövr** kimi səciyyələnir.

Dərin, hərtərəfli bilik, siyasət elminin incəliklərinə bələdlik, dəmir məntiq, unikal yaddaş, böyük əməksevərlik, özünə və başqalarına qarşı tələbkarlıq, elmilik, obyektivlik və fədakarlıq, habelə ən başlıcası insanlara, xalqına sonsuz məhəbbət Heydər Əliyev siyasi fenomenini formalaşdırmış əsas amillərdir. Dünya tarixində Heydər Əliyevdən başqa ikinci bir şəxs yoxdur ki, o, iqtisadi, siyasi və ideoloji baxımdan bir-birindən əsaslı şəkildə, mahiyyətcə fərqlənən cəmiyyətləri eyni müvəffəqiyyətlə idarə edə bilsin.

1969-cu ilin iyulundan Azərbaycana siyasi rəhbər olmuş Heydər Əliyev SSRİ-də baş verən proseslərin nə ilə nəticələnəcəyini uzaqgörənliklə qiymətləndirir, gələcək müstəqil dövlətin iqtisadi, mənəvi bazasının, kadr potensialının yaradılmasına böyük qayğı göstərirdi. Böyük istedadı və uğurlu siyasəti sayəsində SSRİ-də hakimiyyətin ən yüksək vəzifələrinədək ucalmış Heydər Əliyev bu imkanlardan

xalqının iqtisadi və sosial tərəqqisi, milli oyanışı üçün məharətlə istifadə edirdi. O, öz siyasi iradəsi sayəsində qısa müddətdə respublikada idarəçilik sistemini möhkəmləndirdi. Respublikada mənəvi-psixoloji mühiti sağlamlaşdırıldı.

Azərbaycanın iqtisadiyyatını yenidən qurmaq, inkişaf etdirmək üçün Heydər Əliyevin təşəbbüsü və siyasi iradəsi ilə 1970-ci illərdə Sov. İKP MK və SSRİ Nazirlər Soveti 5 mühüm qərar qəbul etdi. Onları həyata keçirmək üçün ittifaq fondundan xeyli vəsait ayrıldı. İqtisadiyyatda struktur siyasətinin prinsipal şəkildə yeni istiqamətləri işlənib hazırlandı. Sənayenin qabaqcıl və mütərəqqi sahələri, maşınqayırma kompleksində, kimya və neft kimyasında, əlvan metallurgiyada texniki cəhətdən yeniləşmə və yenidənqurma prosesləri ilə yeni vaxtda, neft və qaz hasilatı, neft emalı sənayesi, energetika, qara metallurgiya və dağ-mədən sənayesi genişləndirildi. Respublikanın sənaye bazası elmi-texniki tərəqqi əsasında inkişaf etdirildi, iri cihazqayırma, radiotexnika, elektrotexnika, dəzgahqayırma və avtomobil sənayesi müəssisələri yaradıldı, fəaliyyətdə olan zavodların yenidən qurulması və genişləndirilməsində yeni mərhələ başlandı. Obyektlərin lazımi maddi-texniki təchizatı üçün onları mühüm ümumittifaq tikintiləri siyahısına daxil etdirmək, xaricdən texnoloji avadanlıqlar alınması üçün valyuta vəsaiti ilə təmin olunmaq, yeni texnologiyalarla işləməyi bacaran kadrlar hazırlamaq və b. mühüm məsələlər müvəffəqiyyətlə həll olunurdu. Respublikada neft sənayesində mühüm tədbirlər həyata keçirilmişdi. Kəşfiyyat işləri genişləndirilmiş, Xəzərdə 8 yeni neft yatağı, 22 neft-qaz kondensatı yatağı kəşf olunmuşdu. Hasilat artmışdı. Dənizən dibi ilə sahilə neft kəməri çəkilmişdi. Neftçıxarma texnologiyası xeyli təkmilləşdirilmişdi. Neft emalı müəssisələri daha da inkişaf etdirildi. 1976-cı ildə Yeni Bakı Neftayırma zavodunda, 1982-ci ildə isə Bakı Neftayırma zavodunda neftin daha keyfiyyətli ilkin emalı üçün ELOU-AVT qurğuları inşa edildi.

Neft-maşınqayırma zavodlarında əsas sexlər yenidən qurulmuş, yeni istehsal sahələri işə salınmışdı. 70-ci illərdə respublikada istehsal gücü 25 min ton olan (Cənubi Qafqazda ən iri) poladtökmə zavodu tikildi və istifadəyə verildi. Dərin dəniz özülləri zavodunun tikintisinə başlandı. Bu illərdə SSRİ-də istehsal olunan neftçıxarma texnikasının üçdə ikisini Azərbaycan verirdi. Neft-maşınqayırma sahəsində Azərbaycan ABŞ-dan sonra dünyada ikinci yeri tuturdu.

70-ci illərdə respublikada cihazqayırma sənayesinin yeni müəssisələri yaradıldı. Bakı və Gəncə cihazqayırma zavodlarında yeni istehsal xətləri istifadəyə verildi, yenidənqurma işləri aparıldı. Yaponiyanın «Toşiba» şirkəti lisenziyası əsasında 1975-ci ildə Bakı Məişət Kondisionerləri zavodu çox qısa bir müddətdə tikilib işə salındı. 300 gənc ixtisaslaşma üçün Yaponiyaya göndərildi. Bakıda «Ulduz» elektrik cihazqayırma, «Azon» zavodları, Sumqayıtda məişət kompressorları zavodu istifadəyə verildi. Bakı metrosunun tikintisi genişləndi, yeni stansiyalar tikildi.

Enerjitutumlu istehsal sahələrinin inkişafı respublikada elektrik enerjisi istehsalının da artırılmasını tələb edirdi. 70-ci illərdə Araz, Tərtər Su Elektrik Stansiyaları tikilib istifadəyə verilmiş, Şəmkir Su Elektrik Stansiyasının tikintisinə başlanılmışdı. 1970-1982-ci illərdə respublikada elektrik enerjisi istehsalı 1,4 dəfə artdı. Azərbaycanın enerji müstəqilliyi təmin olundu.



Ümumiyyətlə, 70-ci illərdə və 80-ci illərin əvvəllərində Azərbaycanda 250-dən çox fabrik, zavod, istehsal sexi istifadəyə verildi, 630 min yeni iş yerləri açıldı, sənaye istehsalı 2 dəfə və ya əvvəlki 50 ildəki qədər artdı. Əhalini işlə daha yaxşı təmin etmək üçün xırda və orta müəssisələrin çoxu paytaxtdan və başqa iri sənaye mərkəzlərindən kənarda tikilirdi.

Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərlik etdiyi illərdə kənd təsərrüfatının, xüsusən, pambıqçılığın, tərəvəzçiliyin, tütünçülüyün, 70-ci illərin sonlarından isə həm də üzümçülüyün inkişafına diqqət artırılmışdı. Kənd təsərrüfatının texniki təchizatı xeyli yaxşılaşmışdı. 70-ci illərdə Baş Mil, Ciqar-Cibar, Abşeron, Lənkəran kanalları, Araz su qurğusu, Arpaçay, Sərsəng, Yuxarı Xanbulançay, Sirab, Şəmkir, Köndələnçay və b. dəryaçalar tikilib istifadəyə verilmişdi. Bərdə, Ağcabədi, Sabirabad, Beyləqan iri pambıq istehsalı rayonlarına çevrilmişdi. Lənkəran-Astara, Quba-Xaçmaz zonalarında tərəvəzçiliyin inkişafına daha geniş imkanlar açılmışdı. Yeni pambıqtəmizləmə fabrikləri, konserv zavodları işə salınmışdı.

70-ci illərin axırlarından 80-ci illərin ortalarınadək respublikada 90 min hektar yeni üzümlüklər salınmış, şərabın ilkin emalı zavodları istifadəyə verilmişdi.

İri heyvandarlıq kompleksləri tikintisi, təsərrüfatlararası heyvandarlıq müəssisələrinin yaradılması, yem bazasının inkişaf etdirilməsi və malqaranın cins tərkibinin yaxşılaşdırılmasına diqqət artırılmışdı. Respublikaya 126 min baş cins qaramal gətirilmişdi.

Ümumiyyətlə, 14 ildə kənd təsərrüfatında məhsul istehsalı 2,7 dəfə artmışdı.

Respublikanın iqtisadi yüksəlişində kommunikasiya vasitələrinin, xüsusən dəmir yol, avtomobil, hava və su nəqliyyatının, habelə rabitə müəssəsələrinin inkişafı mühüm rol oynamışdı.

İqtisadi yüksəliş xalqın həyat səviyyətsinin də yaxşılaşmasına səbəb olmuşdu. 14 ildə respublikada on milyon kvadratmetrlərlə sahəsi olan yeni yaşayış evləri tikilmiş, iki milyondan çox adamın mənzil şəraiti yaxşılaşdırılmışdı. Bakı daha da gözəlləşmiş, böyümüşdü. Onun ətrafında yeni mikrorayonlar, «Badamdar», «Əhmədli», «Günəşli», «Hövsan» kimi yeni yaşayış massivləri salınmışdı. Paytaxtda indiki «Respublika sarayı», Dəniz vağzalı, Respublika velotreki, «Moskva», «Azərbaycan», «Abşeron» mehmanxanaları, «Gülüstan» sarayı, yeni zoopark, örtülü idman kompleksləri tikilmişdi. Kənd rayonlarında yaşayış məntəqələrinin siması əsaslı şəkildə dəyişmişdi. Kəndlərin çoxunda ağ daşdan aynəbəndli müasir evlər, məktəblər, klub, kitabxana, səhiyyə müəssisələri binaları inşa olunmuşdu. Yaşayış məntəqələrinin su, yanacaq qazı, elektrik enerjisi ilə təchizi yaxşılaşmışdı. 1971-ci ildə Kür su kəməri istifadəyə verildi. 1982-ci ildə Sabirabadda iri su təchizatı qurğusu işə düşdü. 70-ci illərdə Əli Bayramlı – Astara (Traniran), Yevlax-Şəki, Dəvəçi-Xaçmaz, Yevlax-Xankəndi -Naxçıvan və b. qaz

kəmərləri çəkildi. 1970-1982-ci illərdə şəhər və kəndlərdə 612 min mənzil yanacaq qazı ilə təchiz edilmişdi.

Bu nailiyyətlər xalqda öz gücünə, təsərrüfatçılıq qabiliyyətinə, mənəvi potensialına inam yaradırdı.

Onu qeyd etmək olduqca vacibdir ki, bütün bu irəliləmələr keçmiş Sovet İttifaqında əsas iqtisadi göstəricilərin sürətlə aşağı düşdüyü şəraitdə əldə edilmişdi. Bunun ən başlıca səbəbi Azərbaycana Heydər Əliyev kimi görkəmli siyasətçinin, xalqın lideri səviyyəsinə yüksəlmiş bir şəxsiyyətin rəhbərlik etməsi idi. Əldə olunan iqtisadi və mədəni nailiyyətlərə görə Heydər Əliyev nəinki SSRİ-də, hətta dünyada fenomenal bir siyasətçi imici qazanmışdı.

Partiya lideri olmaqla bərabər, Heydər Əliyev həm də SSRİ Ali Sovetinin (VIII-X çağırış) deputatı, onun yuxarı palatası olan İttifaq Sovetinin sədr müavini (IX çağrış), habelə Azərbaycan SSR Ali Sovetinin (VII-X çağırış) deputatı və Rəyasət Heyətinin üzvü kimi geniş dövlətçilik fəaliyyəti göstərirdi. Heydər Əliyevin həyata keçirdiyi kadr siyasəti bütün sahələrdə olduğu kimi qanunverici orqana da bacarıqlı və layiqli adamların seçilməsinə imkan yaratdı. Bu orqanın işi xeyli fəallaşdı, yeni daimi komissiyalar yaradıldı, onların səmərəli işləməsi üçün qayğı göstərildi. Azərbaycan parlamenti respublikanın iqtisadi, mədəni inkişafı üçün hüquqi baza yaradan onlarla qanun qəbul etdi. Heydər Əliyev respublikada qanunçuluğun hüquqi bazasının möhkəmləndirilməsi istiqamətində mühüm tədbirlərin təşəbbüsçüsü oldu. 70-ci illərdə və 80-ci illərin əvvəllərində Azərbaycanın mülki, mülki prosessual, cinayət prosessual məcəllələrinə əlavələr və dəyişikliklər edildi. Azərbaycan SSR-in məhkəmə quruluşu, səhiyyə, dövlət notariatı, xalq təhsili, tarix və mədəniyyət abidələrinin qorunması və onlardan istifadə edilməsi, Nazirlər Soveti, xalq deputatları sovetləri haqqında qanunlar, torpaq, əmək haqqında qanun məcəllələri, inzibati hüquq pozuntuları haqqında, ailə və nikah haqqında məcəllələr qəbul edildi.

Heydər Əliyev ermənilər tərəfindən Azərbaycanın hüquqlarının pozulmasına qarşı yönələn bütün cəhdlərin qarşısını vaxtında, qətiyyətlə alırdı. SSRİ-nin 1977-ci ilin oktyabrında qəbul olunmuş Konstitusiyası hazırlanarkən ermənilərin belə cəhdləri xüsusən artmışdı və yalnız Heydər Əliyevin SSRİ rəhbərləri qarşısında qoyduğu qəti tələblər nəticəsində o vaxt Dağlıq Qarabağın statusu məsələsinə baxılmadı. Heydər Əliyevin rəhbərliyi altında fəaliyyət göstərən respublika Konstitusiya Komissiyasının hazırladığı Azərbaycan SSR-in yeni Konstitusiyası mövcud olan dar imkanlar daxilində xalqın mənəvi sərvətlərinin, xüsusən dilinin qorunub saxlanması və inkişaf etdirilməsi üçün hüquqi əsasları genişləndirdi. Azərbaycan dili respublikada dövlət dili statusunu aldı.

«Qoy ədalət zəfər çalsın!» - o zaman Heydər Əliyevin söylədiyi və bütün əməllərinin mahiyyətini təşkil edən bu sözlər xalqın dilində şüara çevrilmişdi.

Bu dövrdə Heydər Əliyevin milli oyanış, iqtisadi və sosial tərəqqi siyasəti sayəsində Azərbaycanda vətənpərvər, milli təəssübkeş, demokratik qüvvələr xeyli inkişaf etmiş, respublikanın mənəvi potensialı güclənmişdi.



Böyük siyasi idarəçilik qabiliyyəti və təcrübəsi sayəsində Heydər Əliyev SSRİ kimi super dövlətin ən yüksək siyasi və dövlət idarəçiliyi vəzifələrinədək ucalmış, 1976-cı ildə Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ildə Siyasi büro üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində müvəffəqiyyətlə fəaliyyət göstərmişdir. Heydər Əliyevin 1980-ci illərin ikinci yarısında SSRİ rəhbərliyinin siyasi və dövlət idarəçiliyində yol verdiyi ciddi qüsurlara, xüsusən şovinizmə, hakim millətçiliyə, «yenidənqurma» siyasətinin yolverilməz metodlarına, separatizmi dəstəkləməklə millətlərarası münaqişələrin qızışdırılmasına, açıq antiazərbaycan siyasətinə qarşı çıxması, ədalətli və cəsarətli, aydın və prinsipal mövqe tutması onun dövrün ən böyük siyasətçisi olduğunu bir daha sübut etmişdir. Belə bir şəxsiyyətin yüksək vəzifələrdə olması, xalqa dayaq durması imperiyanın planlarını poza bilərdi. Buna görə də, Heydər Əliyev M.Qorbaçovun sonralar etiraf etdiyi kimi, «yenidənqurma prosesini, demokratikləşmə prosesini çox qızğınlıqla, ürəklə bəyənməsinə», «siyasi büronun fəal üzvu və son dərəcə ciddi rəhbər» olmasına baxmayaraq, nəinki 1987-ci ilin oktyabrında idarəçilikdən uzaqlaşdırıldı, hətta xalqın gözündən düşməsi üçün böhtançı təbliğat obyektinə çevrildi. Ona və ailəsinə qarşı təqib, repressiya başlandı. Bu zaman Heydər Əliyev siyasi fenomeninin *xalq yolunda fədakarlıq* kimi mühüm bir cəhəti daha qabarıq şəkildə üzə çıxdı. Ermənistanın Azərbaycana qarşı həyasız ərazi iddiaları, SSRİ rəhbərliyinin buna münasibətdə ədalətli mövqe tutmaması, respublikann o zamankı maymaq rəhbərlərinin səbətsiz, demək olar ki, təslimçilik siyasəti nəticəsində Azərbaycanda başlanmış kortəbii etirazların geniş xalq hərəkatına çevrildiyi, ədalətin və öz qanuni hüquqlarının təmin olunmasını tələb edən insanların 1990-cı ilin 20 Yanvarında sovet ordusu tanklarının altında əzildiyi, xalqın öz müsibəti ilə köməksiz, ümidsiz, başsız qaldığı, «rəhbərlərin» qaçıb gizləndiyi bir vaxtda Heydər Əliyev yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, 6 minədək adamın iştirak etdiyi izdihamlı yığıncaqda çıxış etdi, bu ağır günlərdə doğma xalqı ilə birlikdə olduğunu bildirdi. O, çıxışında 20 Yanvar faciəsinə siyasi qiymət verdi, əliyalın xalqın qırılmasını hüquqa, demokratiyaya, humanizmə zidd mərkəzin və respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv kimi ifşa etdi. Heydər Əliyevin Moskvadakı tarixi çıxışının mətni, bütün maneələrə baxmayaraq, respublikada və dünyada geniş yayıldı. Xalq Heydər Əliyev kimi bacarıqlı, nüfuzlu bir şəxsiyyətin onunla olduğunu, onu cəsarətlə müdafiə etdiyini gördü, ürəkləndi.

Heydər Əliyev ona qarşı mövcud real təhlükələrdən qorxmadan xalqla birlikdə olmaq, xalqa kömək etmək məqsədi ilə Vətənə qayıtdı. Bütün maneələrə baxmayaraq, xalqın böyük dəstəyi sayəsində Naxçıvandan Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan MR Ali Sovetinə deputat seçilmiş Heydər Əliyevin dövlətçilik fəaliyyətində yeni bir dövr başlandı. O, xalqı azadlıq uğrunda sonacan mübariz olmağa çağırırdı. Şəxsi ambisiyalarını xalqın azadlığından üstün tutan o zamankı Azərbaycan rəhbərliyi SSRİ-nin saxlanılmasına münasibət bildirmək üçün referendum keçi-

rilməsinə razılıq verərkən «Bizim ümumittifaqdan nicatımız yoxdur!» deyən Heydər Əliyevin təşəbbüsü ilə ciddi təzyiqlərə baxmayaraq, Naxçıvan Ali Məclisi muxtar respublikada referendumun keçirilməsini qadağan etdi. Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanda milli dövlətçilik ənənələri bərpa edilməyə başlandı. Ali Məclisin qərarı ilə muxtar respublikanın adından «sovet, sosialist» sözləri götürüldü. Azərbaycan Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi qəbul olundu və bu barədə Azərbaycan parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaldırıldı. Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan parlamentinin fəaliyyəti Azərbaycan üçün nümunə idi. Onun ardınca Azərbaycan parlamenti də respublikanın adının dəyişdirilməsi və dövlət bayrağı haqqında qərarlar qəbul etdi.

SSRİ-nin labüd süqutu nəticəsndə 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin bərpa olunması xalqın tarixində yeni bir dövr açdı. Lakin zəngin maddi və mənəvi sərvətləri, starteji geosiyasi mövqeyi olan Azərbaycanı öz nüfuz dairəsində saxlamaq və ondan bəhrələnmək istəyən imperiyapərəst qüvvələr respublikada müstəqilliyin ilk pillələrində siyasi təcrübəsi az olan insanların hakimiyyəti ələ keçirməsi nəticəsində yaranmış ümumi böhrandan istifadə edərək hər vasitəyə əl atmış, Dağlıq Qarabağda milli münaqişə iki xalq arasında qanlı müharibəyə çevrilmiş, tez-tez dövlət çevrilişləri, terror törədilmişdi. O zamankı respublika rəhbərliyi dövlətçilik fəaliyyətində ciddi qüsurlara yol verir, ordu quruculuğunu qəsdən yubadır, xalqın səsini boğmaq üçün qeyri-demokratik addımlar atırdı. Müstəqil Azərbaycan dövlətinin yaranmasına qənim kəsilən səbatsız siyasətin nəticəsi idi ki, dövlətin, dövlətçiliyin əsas əlaməti olan ərazi bütövlüyü pozuldu. Dağlıq Qarabağ ərazisindən azərbaycanlılar qovulub çıxarıldı, Xocalı soyqırımı, onun ardınca Şuşa və Laçının düşmən tərəfindən işğalı baş verdi. Sonralar hakimiyyətin AXC-Müsavat cütlüyündən olan macəraçı həvəskar siyasətbazlar əlinə keçməsi nəticəsində müstəqil Azərbaycan dövlətçiliyinin qurulması işinə daha böyük əngəllər törədildi. Dövlət aparatının ən mühüm elementləri olan güc orqanları nəzarətdən çıxdı. Ölkə idarəolunmaz bir hala düşdü. Hərbi hissələr ayrı-ayrı siyasi qrupların təsiri altına keçdi. AXC-nin dövlət orqanlarını əvəz etmək cəhdləri açıq görünürdü. Onun hərbi hissələri təşkil olunurdu. Demokratiya ciddi şəkildə sıxışdırılırdı. Silahlı dəstələrin köməyi ilə hakimiyyətə gəlmiş parlament sədri İ.Qəmbər «demokratiya boş şeydir!» deyirdi. Söz sahiblərinin, alimlərin təhqir olunması, döyülməsi adi hala çevrilmişdi. Hətta Naxçıvanın beynəlxalq müqavilələrlə qorunan muxtariyyət statusuna da əl uzadılmışdı. 1992-ci il oktyabrın 24-də Naxçıvanda dövlət çevrilişi törətməyə cəhd etmişdilər. Lakin Muxtar Respublika Ali Məclisinin sədri Heydər Əliyev xalqın dəstəyi ilə bu cəhdlərin qarşısını məharətlə ala bilmişdi.

Kadr siyasətindəki səhvlər, korrupsiya, idarəçilikdə ciddi qüsurlar xalqı, xüsusən qabaqcıl ziyalıları iqtidardan daha da uzaqlaşdırırdı. Ölkədə anarxiya hökm sürürdü. Hərbi müxalifət formalaşmışdı. Vətəndaş müharibəsi başlanmış, qardaş qanı tökülmüşdü. Siyasi parçalanma baş vermişdi. Azərbaycan dövlətçiliyi real təhlükə qarşısında idi. Belə bir şəraitdə Heydər Əliyevin rəhbərliyi altında **QURTULUŞ** hərəkatı meydana gəldi, həqiqi vətənpərvərlər partiyası olan Yeni Azərbaycan Partiyası təşkil olundu. Xalqın təkidli tələbi ilə Heydər Əliyevin yenidən respublikaya rəhbərliyə **QAYIDIŞI** siyasi parçalanma və vətəndaş müharibəsi başlanmış ölkədə müstəqil dövlətçiliyin itirilməsi kimi real təhlükəni aradan qaldırdı, Azərbaycan xalqını yeni bəlalardan, müsibətlərdən qurtardı. Silahlı dövlət çevrilişi ilə hakimiyyətə gəlmək kimi yaramaz ənənəyə son qoyuldu, belə cəhdlərin qarşısı qətiyyətlə alındı.

Ölkədə real imkanlar nəzərə alınmaqla demokratiyanın, qanunçuluğun inkişafı üçün münasib imkanlar yaradıldı. Bu iş 1995-ci ildən – yəni respublikada siyasi sabitliyin tam təmin olunmasından sonrakı dövrdə xüsusən intensivləşdi. Heydər Əliyevin rəhbərliyi altında «Azərbaycan Respublikasının Konstitusiyası» – müstəqil Azərbaycan dövlətinin ilk Əsas Qanunu hazırlandı və qəbul olundu, ölkədə demokratik, hüquqi dövlət, azad iqtisadiyyat, vətəndaş cəmiyyəti quruculuğunun hüquqi əsasları yaradıldı. Qanunların sivil dünya dövlətlərinin dövlət quruculuğu ənənələrinə, beynəlxalq normalara uyğun hazırlanması üçün prezidentin yanında «Hüquqi İslahatlar Komissiyası» təşkil olundu. İdarəetmə sistemində islahatlar həyata keçirildi. Hüquq mühafizə orqanları inkişaf etdirildi və möhkəmləndirildi. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi təşkil olundu. Ombudsman institutu yaradıldı. Ölkədə demokratik cəmiy-yətin mühüm elementi olan yerli özünüidarə – seçkili bələdiyyələr sistemi quruldu.

Heydər Əliyevin təşəbbüsü ilə ordu quruculuğu sürətləndi. «Müdafiə haqqında» qanun qəbul edildi. Köhnə başıpozuq hərbi hissələr ləğv olundu, əldəqayırma «generallar», xainlər, satqınlar ordudan uzaqlaşdırıldı. Nəticədə düşmənin respublikanın içərilərinə doğru hücumu dayandırıldı. Heydər Əliyevin gündəlik qayğısı sayəsində Azərbaycan ordusu getdikcə inkişaf etdi, müasir hərbi texnika, bacarıqlı kadrlarla təchiz olundu, silahlı qüvvələrin şəxsi heyətinin döyüş qabiliyyəti artırıldı. Bu işdə NATO ilə «Sulh NaminəTərəfdaşlıq» proqramı çərçivəsində həyata keçirilən tədbirlərin böyük köməyi olmuşdur.

Heydər Əliyev müstəqil dövlətçiliyi möhkəmləndirməyin, vətəndaş həmrəyliyinə nail olmağın mühüm vasitəsi kimi mövcud siyasi və ictimai təşkilatlarla sağlam münasibətlər qurulmasına, bu təşkilatların demokratik prinsiplər əsasında inkişaf etməsi üçün şərait yaradılmasına qayğı göstərir. Respublikada qanuni, demokratik vasitələrlə siyasi fəaliyyət və fikirlər plüralizmi üçün geniş imkanlar yaradılmışdır. Senzura ləğv edilmişdir. Mətbuatın inkişafına dövlət qayğısı göstərilir. «Milli Televiziya və Radio Şurası» təşkil olunmuşdur.

Sağlam müxalifətin siyasi həyatda mühüm rol oynaya biləcəyini qiymətləndirən Heydər Əliyev respublikada belə bir siyasi qüvvənin formalaşmasına kömək edir. Müxalif partiyalara demokratik vasitələrdən istifadə etməklə təbliğat və təşviqat imkanları yaradılır, onlar yüzlərlə qəzet və jurnal çap edib yayır, televiziya və radio kanallarından istifadə edir, seçki komissiyalarında, parlamentdə təmsil olunurlar.

Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda müasir dövlətçiliyin qurulması və möhkəmləndirilməsi, siyasi sabitliyin yaradılması ölkənin iqtisadi və mədəni tərəqqisinə geniş yollar açmışdır. Respublikada iqtisadi böhran, təsərrüfat həyatındakı tənəzzül aradan qaldırılmış, özəlləşdirmə, mütərəqqi torpaq islahatı həyata keçirilmiş, sahibkarlığın inkişafı üçün ən münasib imkanlar yaradılmışdır. Prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın yeni dövlət neft strategiyası hazırlanmış və müvəffəqiyyətlə həyata keçirilməyə başlanmışdır. Bu, Azərbaycan neft sənayesində yeni eranın əsasını qoymuşdur. İqtisadiyyata xarici investisiyaların geniş cəlb edilməsi, Tarixi İpək Yolunun bərpası, ölkənin tranzit imkanlarının artması sahəsində görülən tədbirlər Azərbaycan iqtisadiyyatının dirçəlməsi, yenidən qurulması və inkişafı üçün mühüm amillər olmuşdur.

Heydər Əliyev siyasi fenomeninin mühüm tərəflərindən biri də onun yunikal diplomatiyasıdır. Heydər Əliyev diplomatiyası beynəlxalq münasibətlər sistemində yaranmış dəyişikliklər, qloballaşma meylləri, dövlətlərin Cənubi Qafqaz regionundakı siyasi və iqtisadi maraqlarının Azərbaycanın maraqları ilə mümkün qədər uzlaşdırılması kimi praqmatik əsaslar üzərində qurulmuşdur. Azərbaycan prezidenti ən yüksək beynəlxalq tribunalardan müasir dünya siyasətinin aktual məsələləri, xüsusən, yenicə müstəqillik əldə etmiş dövlətlərə münasibətdə aydın hiss olunan *ikili standartlarla* yanaşmanın yolverilməzliyi, qloballaşmaya, terrorizm və separatçılığa qarşı mübarizəyə kömək edən ölkələrə texnoloji yardım, maliyyə yardımı göstərilməsi, mədəniyyətlərin toqquşması təhlükəsini aradan qaldırmaq üçün demokratiya və bazar iqtisadiyyatının inkişafında ayrı-ayrı xalqların mentalitetinin nəzərə alınmasının vacibliyi haqqında nəzəri müddəalarla çıxış etmişdir. Heydər Əliyev xarici siyasəti olduqca mürəkkəb beynəlxalq şəraitdə Azərbaycan xalqının əldə etdiyi dövlət müstəqilliyinin qorunub saxlanılmasına və möhkəmləndirilməsinə, ərazi bütöblüyünün bərpasına, habelə Azərbaycan dövlətinin beynəlxalq hüququn, beynəlxalq münasibətlər sisteminin subyekti kimi rol və nüfuzunun artmasına, onun öz böyük maddi resurs, unikal mənəvi və əhəmiyyətli geosiyasi imkanlarına müvafiq mövqe tutmasına istiqamətləndirilmişdir. Heydər Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycan Respublikasının xarici siyasət potensialı ardıcıl surətdə artmışdır. Daxili siyasi sabitliyin yaradılması, demokratiyanın inkişaf etdirilməsi, iqtisadi tərəqqi üçün münasib şərait, müvəffəqiyyətlə həyata keçirilən neft strategiyası, Qədim İpək Yolunun bərpası, ordu quruculuğuna diqqətin artması, informasiya blokadasının yarılması və Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması, beynəlxalq danışıqlarda Azərbaycanın maraqlarının müdafiə olunmasında Heydər Əliyev prinsipiallığı və qətiyyəti bu sahədə mühüm rol oynamışdır.

Heydər Əliyevin siyasi fəaliyyətində Azərbaycan xalqında milli ideologiyanın formalaşmasını istiqamətləndimək mühüm sahələrdən birini təşkil edir. Hələ kommunist ideologiyasının hakim olduğu 1970-ci illərdə o, respublikada milli yaradıcı qüvvələrin, ziyalıların formalaşmasına böyük qayğı göstərmiş, milli ruhlu yazıçı və şairləri, alimləri himayə etmiş, onların «dissident» adı ilə damğalanmasına yol verməmiş, SSRİ-nin ən nüfuzlu ali təhsil ocaqlarında azərbaycanlı gənclərin təhsil almasına, milli dəyərlərin, xüsusən onlardan ən mühümü olan Azərbaycan dilinin qorunub saxlanmasına və inkişaf etdirilməsinə şərait yaratmışdır. Azərbaycan dilinə, xalqın tarixinə dair elmi əsərlərə dövlət mükafatları verilməsi elm adamlarını yaradıcı fəallığını artırmış, xalqın mənəvi sərvətinə çevrilmiş fundamental əsərlər yaradılmışdır. Bu illərdə milli hərbi kadrların yetişməsi üçün Heydər Əliyevin təşəbbüsü ilə C.Naxçıvanski adına Respublika orta hərbi məktəbi təşkil edilmişdi.





Heydər Əliyevin milli ideologiyanın formalaşdırılması sahəsində fəaliyyəti onun müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə daha da genişlənmişdir. Xalqın mənəvi aləminin milli və bəşəri dəyərlər əsasında daha da zənginləşməsinə, təhsilin, elmin, habelə milli mentalitetə yad olan elementlərin qətiyyətlə dəf olunmasına istiqamətləndirilmiş bu siyasət Azərbaycan dövlətçiliyinin daha da möhkəmlənməsinə, əbədi olmasına möhkəm zəmin yaratmışdır. Ölkədə elmin baş məbədi olan Azərbaycan Milli Elmlər Akademiyası Heydər Əliyevin milli siyasətində xüsusi yer tutur. Ölkəyə rəhbərlik etdiyi illərdə o, dəfələrlə akademiyada olmuş, onun elmi yığıncaqlarında, o cümlədən ümumi iclasında da iştirak etmişdir. 2001-ci ilin 15 mayında o, Azərbaycan Elmlər Akademiyasının Milli Elmlər Akademiyası adlandırılması haqqında xüsusi fərman imzalamış və AMEA-nın vəzifələrini müəyyənləşdirmişdir.

Ölkə rəhbərinin Azərbaycan Milli Elmlər Akademiyasının statusu, nizamnaməsi, prezidenti haqqındakı 4 yanvar 2003-cü il tarixli fərmanları da onun elm sahəsindəki müdrik siyasətinin nümunələridir. Heydər Əliyevin rəhbərliyi altında milli özünəməxsusluğun ən mühüm təzahürü olan Azərbaycan dilinin inkişafı, onun təmizliyinin qorunması, dövlət dili statusunun tətbiqi sahəsində mühüm addımlar atılmışdır. Dilin xalq üçün iqtisadiyyatdan da əhəmiyyətli olduğunu qeyd edən Prezident Heydər Əliyev "Dövlət dilinin tətbiqinin təkmilləşdirilməsi haqqında" fərman vermiş (2001-ci il iyunun 18-də), dövlət başçısının yanında "Dövlət Dil Komissiyası" yaradılmış, "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanun qəbul edilmiş ( 2002-ci il sentyabrın 30-da), 2001-ci il avqust ayının 1-dən latın qrafikalı Azərbaycan əlifbası qəti tətbiq edilməyə başlanmışdır.

Heydər Əliyev siyasəti xalqı irəli, qələbələrə aparmaq siyasətidir. Bu, bütün Azərbaycan xalqının, kiçikdən-böyüyədək hər bir vətəndaşın xoşbəxtliyinə, xoşbəxt gələcəyə ünvanlanmış qadir siyasətdir. Ona görə də xalq tərəfindən başa düşülür və hərtərəfli dəstəklənir.